*UOT 37.*

***Vəliyəddin Ziyəddin oğlu Müsəllimov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*
*E-mail: veliyeddinmusalimov 1962@mail.ru*
*https://orcid.org/ 0009-0000-7463-4100*
*https://doi.org/10.69682/arti.2025.92(5).41-44*

# DÜNYA PRAKTİKASINDA TƏHSİLİN KEYFİYYƏTİNİN DƏYƏRLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ

***Valiyeddin Ziyeddin Musallimov***
*senior lecturer of the Azerbaijan State Pedagogical University*

# EDUCATION QUALITY ASSESSMENT MECHANISMS IN WORLD PRACTICE

***Велияддин Зиеддин оглы Мусаллимов***
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# МЕХАНИЗМЫ ОЦЕНИВАНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В МИРОВОЙ ПРАКТИКЕ

**Xülasə.** Elmi məqalədə ilkin olaraq təhsildə keyfiyyət anlayışı, onun mahiyyət və məzmununa ayrı-ayrı pedaqoqların fikirlərinə istinad edilərək öyrənilmişdir. Dünya praktikasında təhsildə və təhsilin idarə olunmasında keyfiyyətin dəyərləndirilməsi mexanizmləri və onların həyata keçirilməsi istiqamətləri araşdırılmışdır.
***Açar sözlər:*** *təhsil, keyfiyyət, Amerika, akkreditasiya, universitet, dəyər, kollec*

**Abstract.** In the scientific article, initially, the concept of quality in education, its essence and content was studied by referring to the opinions of individual educators. In world practice, the mechanisms of assessing quality in education and education management and the directions of their implementation were investigated.
***Keywords:*** *education, quality, America, accreditation, university, value, college*

**Аннотация.** В научной статье изначально исследовалось понятие качества в образовании, его сущность и содержание со ссылкой на взгляды отдельных педагогов. В мировой практике исследовались механизмы оценивания качества в образовании и управлении образованием и направления их реализации.
***Ключевые слова:*** *образование, качество, Америка, аккредитация, университет, ценность, колледж*

Müasir dünyada təhsil müəssisələri dünya səviyyəsində bəzən ağır rəqabətə davam gətirmək məcburiyyətindədir. Bu zaman məlum məsələdir ki, yeganə çıxış yolu özünü başqalarından fərqləndirmək, daha güclü olduğunu sübuta yetirməkdir. Daha yüksək səviyyədə təhsil verən, daha böyük nüfuza malik olan təhsil müəssisələri yeniləşməyə məcbur olur, keyfiyyətə baxışını dəqiqləşdirməyə çalışır.

H.A. İsaxanlının sözlərinə görə ”Keyfiyyət davamlı inkişafa yönələn sistem və üsullar hökmən mümkün qədər vaxtında görülməlidir”( 1, s.9).

Prof. O. Mehrabovun qənaətinə görə isə, “keyfiyyət, ümumiyyətlə, istənilən prosesin müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və bütöv xarakteristikasıdır“ (3, s. 68).

Təhsil müəssisələrini bütövlüklə xarakterizə edən ümumi keyfiyyətin ölçülməsində, amerikalıları ilklərdən hesab etmək olar. 20-ci əsrin 2-ci yarısında Amerika Birləşmiş Ştatlarında təhsil təhsil qurumları ilə bağlı bir sıra həyati vacib problemlər meydana çıxmışdı. Ali təhsil almaq üçün kolleclərə qəbul qaydaları işlənilməmişdir, kolleclərdən dərəcə alıb məzun olmaq barədə standartlar demək olar ki yox idi.

Klassik və eləcə də sabit tədris planları isə bu zaman işə yaramırdı və üstəlik də seçmə dərslərə ehtiyac artmışdı. Psixologiya və sosiologiya kimi yeni elm sahələri də formalaşmaqda idi. Ali məktəblər onlara biganə qala bilməzdi. Bir kollecdən bakalavr dərəcəsi almış məzun başqa kollecdə magistr proqramına daxil olmaq istəyəndə uğursuzluq meydana çıxırdı.

Problemlərlə üzləşən ali məktəblər çıxış yolları axtarmağa başladılar. Xüsusilə ali məktəbə qəbul məsələsi gündəlikdə təxirəsalınmaz hala gəlmişdi. Bu səbəbdən də 1871-ci ildə Miçiqan Universiteti öz müəllimlərini orta məktəblərə göndərib məktəblərdə təhsilin və tədrisin vəziyyətini araşdırmağa başladı. Bəyənilmiş orta məktəblərin məzunları orta məktəbi bitirmək haqqında sənəd təqdim etməklə Miçiqan Universitetinin tələbəsi olmaq hüququ qazandılar. Viskonsin, İndiana, və Kaliforniya universitetləri də eyni cür hərəkət etməyə başladılar. Bu, Amerikada təhsil müəssisələrinin planlı şəkildə dəyərləndirilməsinin, təhsildə keyfiyyət ölçülərinin tətbiqinin ilki oldu. Ali məktəblər orta məktəbləri qiymətləndirən, müəyyən mənada akkreditasiya edən qurum vəzifəsini öz öhdələrinə götürdülər.

1885-ci ildə Yeni İngiltərədə məktəblər və kolleclər assosiasiyası, 1887-ci il Orta ştatlar, 1895-ci il Cənub və Şimal Mərkəz məktəblər və kolleclər assosiasiyaları yarandı. Digər iki analoji qurum uyğun olaraq 1917-ci və 1923-cü illərdə yaradıldı. Bunlara Şimali-Qərb və Qərb məktəblər və kolleclər assosiasiyaları daxil idi. Bu altı assosiasiya universitet və kollecləri akkreditə etməyə başladılar. 1910 və 1954-cü illər arasında onlar nəzarətdən keçmiş ali məktəblərin siyahısını elan etdilər. Bu günə kimi Amerika Birləşmiş Ştatlarının universitetlərinin və kolleclərinin dəyərləndirilməsi bu altı nüfuzlu qeyri-hökumət təşkilatlarının üzərinə düşür. Bu regional assosiasiyalar öz keyfiyyət standartları və ya indikatorları özündə əks etdirən kitabları çap etdirir.

Akkreditasiya bir tərəfdən keyfiyyətin və standartların sabit olmadığını, hərəkətdə olduğunu nəzərə alır, ali məktəbin fəaliyyətinə bir proses kimi baxır və yol göstərir. Digər tərəfdən isə akkreditasiya qərardır, keyfiyyət haqqında rəsmi tanınmadır və tənzimləmə vəzifəsini yerinə yetirir. Bu zaman, əlbəttə, ali məktəbin məqsədinə və ölçüsünə görə fərqli olmasını və özünəməxsus olmaq istəyini akkreditasiya qurumu nəinki sındırmağa çalışmamalı, tam əksinə bu istəyi qorumalıdır. Amerika Birləşmiş Ştatlarında ümumiyyətlə akkreditasiya üçün müəyyən edilmiş minimum standartlar çox yüksək deyil. Bu səbəbdən güclü ali məktəblərlə yanaşı, bir sıra nisbətən zəif kollec və universitetlərin də akkreditasiyadan keçmək imkanı var.

1990-cı illərdə Birləşmiş Krallıqlarda ali təhsildə keyfiyyətin müəyyən edilməsi istiqamətində təşkilatlanma başlandı. Bu ölkə ali təhsildə keyfiyyətə nəzarət sahəsində Avropada ən çox iş görmüş ölkə sayılır. Ona görə də uğurlar da, mübahisəli məsələr burada çoxdu.

1992-ci ildə İngiltərə, Şotlandiya və Uels üzrə maliyyələşdirmə Şuraları yaradıldı. Onların əsas vəzifəsi dövlətin maliyyələşdirdiyi ali məktəblərdə keyfiyyətin dəyərləndirilməsi idi. İngiltərədə bu qurum "İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" adlandırıldı. Bu Şura ixtisaslaşma üzrə tədris planlarını və fənnləri araşdırmaq yolu ilə keyfiyyəti ölçməyə məsul oldu. Başqa sözlə desək, akademik proqramları təftiş edərək ixtisaslaşmış/peşəkar akkreditə ilə məşğul oldu. Qiymətləndirmənin nəticəsi üç cür ola bilərdi-əla, məqbul və qeyri-məqbul. Digər tərəfdən, ali məktəb rəhbərləri Ali təhsil keyfiyyət Şurası adlanan və ali məktəblərdə keyfiyyəti müəyyən edən qurum yaratdılar.

Beləliklə, İngiltərədə, eləcə də Şotlandiya və Uelsdə ali məktəblərin keyfiyyət ölçülərini müəyyən edən biri müstəqil, digəri isə təşkilatı baxımdan dövlət nəzarətində olan iki qurum meydana gəldi. Eyni zamanda Ali məktəblərdə keyfiyyətin müstəqilliklə sıx əlaqəsi olduğu da vurğulandı. Sonda binar sistem-yəni universitetlər və politexnik institutların paralel varlığı aradan qaldırıldı, politexniklər universitetə çevrildilər. Beləliklə, istisnasız bütün ali məktəblər öz sənədlərini özləri verməyə başladılar. Onu da qeyd edək ki, əvvəllər politexniklərə diplomlar Milli Akademik Təltiflər Şurası adlanan qurum tərəfindən verilirdi.

H.A. İsaxanlı yazır:" Müasir dünyada ali məktəbin müstəqilliyi və şəffaflığı-ikisi bir yerdə keyfiyyətin təməli sayılır. Onu da qeyd edək ki, akademik əksəriyyətin fikrinə görə keyfiyyətli ali məktəblərin sayı baxımından Birləşmiş Ştatlardan sonra Birləşmiş Krallıqlar gəlir" (1, s. 26).

Maraq üçün qeyd edək ki, İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" 1992 və 1995-ci illər arasında apardığı 912 dəyərləndirmədə 249 proqram, yəni 26% əla, 711 proqram, yəni 73% məqbul və yalnız 12 proqram, yəni 1% qeyri-məqbul qiymət almışdı. 1994-cü ildə bütövlükdə və ixtisaslaşmış dəyərləndirmə aparan iki qurumu birləşdirib keyfiyyəti hərtərəfli ölçə bilən müstəqil agentlik yaratmaq qərara alındı. 1997-ci ildə Keyfiyyət təminatı agentliyi - QAA əvvəlcə hər iki istiqamətdə fəaliyyət göstərdi, lakin çox tənqidlərə məruz qaldıqdan sonra 2002-ci ildən başlayaraq yalnız ümumi keyfiyyəti ölçməyə yönələn qrum auditi ilə məşğul olmağı davam etdirdi. Akademik proqramlara isə QAA ancaq çox zəruri olduqda müraciət etməyi qərara aldı. Digər tərəfdən "İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" hər beş ildən bir yerinə yetirilməli olan yeni tədqiqat dəyərləndirilmə çalışmaları üzərində dayandı. Bu, hər sahə üzrə universitetlərin tədqiqat gücünü və ona uyğun olaraq ayrılan maliyyələşdirməni müəyyən etmək məqsədi güdür. Bu güc 1-dən 5-ə kimi qiymətləndirilir, 1 və 2 alan tədqiqat sahələrinə maliyyələşdirmə ayrılmır, 5 alan sahənin maliyyəsi 3 alandan dörd dəfə çox olur.

Ş. Qəribov, İ. Əsədova, T. İsmayılova, M. Kazımov, F. Həsənoğlu dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Rusiya Federasiyasının orta ixtisas təhsili müəssisələrində keyfiyyətin idarəolunması məsələlərinə toxunaraq göstərirlər ki, "Rusiya Federasiyasının orta ixtisas təhsili müəssisələrində keyfiyyətin idarəolunması mərkəzləşdirilmiş qaydada baş idarə tərəfindən yaradılan xüsusi komissiyanın fəaliyyəti, təhsil müəssisəsinin direktoru, tədris-tərbiyə işləri üzrə direktor müavini, gənclər təşkilatı, tələbə həmkarlar təşkilatı və qrup rəhbərləri tərəfindən həyata keçirilir.

Rusiyada Baş idarələr Rusiya Federasiyasının Təhsil Nazirliyinə tabe olur və Nazirliyin təlimatı əsasında fəaliyyət göstərir. Regional idarəetmədə baş idarənin funksiyalarını regionlarda yaradılmış departamentlər tərəfindən həyata keçirilir" [5,s.156].

**Nəticə**

Hər hansı ali məktəbi dəyərləndirərkən dəqiq işlənmiş meyarlar və ya standartlara əsaslanmaq vacibdir. Bu standartların baxılan ali məktəbdə hansı dərəcədə olması haqqında fikir yürütmək qiymətləndirməyə məsul olan qurumun işidir. Bütün göstəriciləri yeddi qrupa ayırmışıq, əlbəttə, belə qruplaşmalar müxtəlif ola bilər. Burada biz təhsildə keyfiyyətə təsir edən amilləri, yəni ali məktəbi yaxşı edən, " gözəl ali məktəb" adını səciyyələndirən tərəfləri qruplaşdırmışıq: təhsil siyasəti, tədrisin ciddiliyi və mühit, təhsil və tədrislə bağlı plan və proqramlar, alimlər və müəllimlik fəaliyyəti, tələbələr və tələbə həyatının təşkili, maddi və fiziki qaynaqlar, kitabxana, inkişaf və fəaliyyət planları.

Bununla yanaşı, dünyanın inkişaf etmiş ölkələrində ali təhsil almağın sərfəli formaları uğurla fəaliyyət göstərir və inkişaf edir. İlk növbədə bu, Amerika formatlı ikiillik kollecdir ki, onun modelini dünyanın müxtəlif ölkələrindən olan təhsil sahəsi üzrə ekspertlər öz ölkələrinin şəraitlərinə uyğunlaşdırmaq üçün araşdırırlar. Bu növ kolleclər sinfi səmərəli olduğundan dünyada ona olan maraq artmaqda davam edir. Cənubi Koreya, Çin, Hindistan, Şri Lanka, Vyetnam, Braziliya və Niderland ikiillik kolleclər sisteminin Amerika modelini öz ölkələrində artıq yaradıblar. Bu baxımdan onların təcrübəsi Azərbaycan üçün çox vacibdir. Vauçerlər vasitəsilə tələbələrin təhsil almasının maliyyələşməsi baxımından yeni formaları istər özəl, istərsə də dövlət universitetlərinin inkişafının mühüm tərkib hissələrindən birinə çevrilə bilər. Bu sistem universitetlər arasında rəqabətin artmasına səbəb olacaq. Son nəticədə o, universitet mühitində keyfiyyətin güclənməsinə gətirib çıxaracaq.

R. Sədirxanov vauçerlərin istifadə sahəsini artırmaqdan ötrü dörd növün tətbiq olunmasını təklif edir: "birinci növ – bu, hazırda tətbiq olunan vauçerdir; ikinci növ – müstəqil olaraq əlavə ödənilən vauçerdir, bu o deməkdir ki, ödəniş məbləğinin vauçeridir, ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali məktəblərdə seçdiyi ixtisas üçün əlavə ödənişi tələbə özü ödəyir; üçüncü növ-kreditlə əlavə ödənilən vauçerdir, bu o deməkdir ki, tələbə ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali təhsil müəssisələrində seçdiyi ixtisas üçün əlavə ödəniş məqsədilə dövlətdən maliyyə krediti almaq imkanına malikdir; dördüncü növ-qrantəsaslı vauçerdir, bu o deməkdir ki, ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali təhsil müəssisələrində tələbənin seçdiyi ixtisas üçün əlavə ödənişi dövlət ödəyir" (4, s. 61).

Bu cür istisnaların sayı, məsələn, bütün vauçerlərin sayının 5%-i qədər, yaxud yalnız cari dövrdə dövlətin ehtiyac hiss etdiyi ixtisaslar üzrə məhdudlaşdırıla bilər, bu cür qrant-əsaslı imtiyazlara namizəd olan tələbələrdən yüksək daxilolma balı toplamalarını tələb etmək tamamilə əsaslıdır.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın və bu Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının təsdiqi təhsilimizin inkişafında mühüm addım olaraq tarixə düşdü. Hər iki dövlət sənədində əsas məqsədlərdən biri kimi təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması nəzərdə tutulur. Bu da təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

**Problemin elmi yeniliyi.** Dünyanın bir çox ölkələrində təhsildə keyfiyyətin dəyərləndirilməsi mexanizmləri, tarix boyu onun inkişaf mərhələlərinin araşdırılması və ali təhsil müəssisələrində onların həyata keçirilməsi istiqamətlərinin müəyyən edilməsi müasir dövrdə rəqabətə davamlı və güclü təhsil sisteminin yaradılması üçün önəmli məsələlərdən biridir.

**Problemin praktik əhəmiyyəti.** Elmi məqalədə irəli sürülən ideyalardan, nəticələrdən təhsilin keyfiyyət səviyyəsinin müəyyən olunmasında, idarə olunma ilə bağlı dərslik və dərs vəsaitlərinin hazırlanmasında, elmi aspektə keçirilən müxtəlif simpozium və konfranslarda, məruzə və çıxışların tərtibində istifadə imkanlarını zənginləşdirir və genişləndirir.

Alınan nəticələrdən ali təhsil müəssisələrində çalışan məktəbin müəllimləri, təhsil işçiləri, təlim problemləri ilə məşğul olan şəxslər metodiki baxımdan istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. İsaxanlı, H.A.Yaxşı nədir, pis nədir? Ali təhsilin inkişaf səviyyəsi, keyfiyyət göstəriciləri və akkreditasiya haqqında /H.A. İsaxanlı.- Bakı: Xəzər Universiteti, -2007. -54 s.
2. Abbasov, A.N. Pedaqogika: Dərs vəsaiti / A.N. Abbasov. – Bakı: Mütərcim, 2015. – 360 s.
3. Mehrabov, A.O. Təhsil sistemində keyfiyyət təminatının metodoloji məsələləri //-Bakı: Ali təhsil və cəmiyyət.-2012. №1, -s.68-74
4. Sədirxanov, R. Azərbaycanın ali təhsil sistemində keyfiyyət təminatının özünütənzimləyən mexanizminin yaradılmasına dair bəzi praktiki təkliflər //-Bakı: Ali təhsil və cəmiyyət, -2012. №1, -s.59-67
5. Təhsilin idarə edilməsinin aktual problemləri. / Ş. Qəribov, İ. Əsədova, T. İsmayılova [və b.] - Bakı: Şahin-MB, -2016.-192 s.

**Redaksiyaya daxil olub:** 15.09.2025.